# HEYDƏR ƏLİYEVİN UĞURLU NEFT STRATEGİYASI ELM VƏ TƏHSİLDƏ UĞURLU NƏTİCƏLƏRƏ SƏBƏB OLDU

**Nailə Hüseynova**
*0000-0002-4910-6717, AMEA A.A.Bakıxanov adına*
*Tarix İnstitutu Ümumi tarix şöbəsi a.e.i., t.ü.f.d. dos.,*
*naile-bayramova@rambler.ru*

**HAYDER ALIYEV'S SUCCESSFUL OIL STRATEGY SCIENCE AND CAUSED SUCCESSFUL RESULTS IN EDUCATION**

**Naile Huseynova**

**Summary**

It is noted that oil occupies an important place in the economy of Azerbaijan. The possibilities of using funds received from oil are considered. The importance of ongoing state reforms in the field of science and education was emphasized. The facts and results of the implementation of various state programs at the expense of funds acquired by the State Oil Company of the Republic of Azerbaijan (SOCAR) are analyzed.
**Keywords:** Heydar Aliyev, State Oil Fund, education, oil strategy, reform

**HEYDƏR ƏLİYEVİN UĞURLU NEFT STRATEGİYASI ELM VƏ TƏHSİLDƏ UĞURLU NƏTİCƏLƏRƏ SƏBƏB OLDU**

**Nailə Hüseynova**

**Xülasə**

Neftdən əldə edilən vəsaitdən istifadə imkanları açılqlanır. Elm və təhsil sahəsində keçirilən dövlət islahatlarının vacibliyi vurğulanır. ARDNŞ-nin və ARDNF-nun əldə etdiyi vəsait hesabına müxtəlif Dövlət proqramlarının reallaşması faktları və nəticələri araşdırılaraq təhlil edilir.
**Açar sözlər:** Heydər Əliyev, Dövlət Neft Fondu, təhsil, neft strategiyası, islahat

**УСПЕХИ НЕФТЯНОЙ СТРАТЕГИИ ГЕЙДАРА АЛИЕВА - ОБЕСПЕЧЕНИЕ УСПЕШНЫХ РЕЗУЛЬТАТОВ В НАУКЕ И ОБРАЗОВАНИИ**

**Наиля Гусейнова**

**Аннотация**

Отмечается, что нефть занимает важное место в экономике Азербайджана.Рассмотрены возможности использования средств, полученных от нефти. Подчеркнута важность осуществленных государственных реформ в сфере науки и образования. Анализированы факты и результаты реализации различных государственных программ за счет средств, приобретенных Государственной нефтяной компанией Азербайджанской Республики.
**Ключевые слова**: Гейдар Алиев, Государственный Нефтяной Фонд, образование, нефтяная стратегия,реформа

**Giriş**. Ərazisi zəngin təbii sərvətlərə malik olan Azərbaycan müstəqillik qazandıqdan sonra xalq bütün sərvətlərinin, o cümlədən neftin real sahibinə çevrildi. Neft Azərbaycanın iqtisadi, siyasi və mədəni həyatında həmişə mühüm yer tutub. Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü iqtisadi siyasəti nəticəsində neft Azərbaycan xalqının iqtisadi tərəqqisinin və gələcək inkişaf yollarının qarantına çevrildi.

Dövlətin müstəqilliyi üçün güclü elmi potensiala və intellektual sahədə əldə edilən milli nailiyyətlərə çox böyük önəm verən H.Əliyev peşəkar strateq kimi “Əsrin müqaviləsi”nə imza atarkən milli dövlət quruculuğunu və xalqın firavanlığını əsas götürürdü.

**Nəzəriyyə ilə praktikanın vəhdəti Heydər Əliyevin əsas amalı idi**: Elmin inkişafı ilə iqtisadi inkişafın bir-biri ilə sıx bağlı olması, bir- birini tamamlaması həm iqtisadiyyatın, həm də cəmiyyətin inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir. Elm müasir cəmiyyətdə innovativ iqtisadiyyatın formalaşmasında və inkişafında əsas elementdir. Azərbaycan iqtisadiyyatının əsas xəttini təşkil edən neft sənayesinin inkişafı üçün bu sahəyə elmi nəticələrin tətbiqi öz bəhrəsini vermişdir. Nəzəriyyə ilə praktikanın vəhdətini dərindən dərk edən və rəhbərlik etdiyi dövlətin inkişafının qaranlıqdan işığa çıxmasında yeganə yolun məhz bu vəhdətdən asılı olduğunu bilən Ulu Öndər Heydər Əliyev respublikada elm və təhsilin inkişafı üçün bütün imkanlardan səmərəli istifadə edilməsinə çalışmış, buna nail olmuşdu. Milli kadr patensialının formalaşmasına qısqanclıq hissi ilə yanaşan Moskva rəhbərliyinin təzyiqlərinə H.Əliyev " Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", 1973- cü ildə " Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında " qəbul etdiyi qərarları ilə qətiyyətlə cavab vermişdi. Nəticədə 1970-80- ci illərdə ümumtəhsil məktəblər şəbəkəsi genişlənərək 765 - dən 2117- yə çatmışdı. Ali təhsil alanların sayı isə 70 mindən 100 minə qədər artmışdı [4,6].

"Elmin strateji inkişafı və Azərbaycan MEA - da islahatların konsepsiyası","Elm siyasəti haqqında" qanunun qəbul edilməsi Ulu Öndərin elmə verdiyi dəyəri bir daha təsdiqləyir [1,465]. Azərbaycan elminin maddi- texniki bazasının keyfiyyətcə yaxşılaşması üçün konkret tədbirlər görüldü.

Elm və təhsinlin inkişafına ayrılan vəsait "Əsrin müqaviləsi" əsasında əldə edilən mənfəətin hesabına reallaşa bilmişdi. Əldə edilən vəsaitin xeyli hissəsi böyük layihələrə, yeni infrastruktur-ların yaradılmasına, əhalinin sosial rifahının yaxşılaşdırlımasına yönəldiyi kimi qeyd etdiyimiz kimi elm və təhsilin inkişaf etdirilməsinə də sərf olunmuşdur. Neftdən gələn gəlirlər hesabına ölkə-də ordunun, təhsil, elm və səhiyyə müəssisələrinin yüksək səviyyədə inkişafına, sosial xidmətlərin səviyyəsinin yüksəldilməsinə, urbanizasiya və müasir şəhər infrastrukturunun inkişaf etdirilməsinə nail olunmuşdur [5].

2011 - ci ildə Dövlət Neft Fondundan 9 000,0 milyon manat dövlət büdcəsinə transfer edilmiş və bu vəsait dövlət büdcəsinin gəlirlərinin formalaşmasında əhəmiyyətli yer tutmuşdur [3 ]

Fondun hesabına nəinki Azərbaycanda,hətta dost ölkələrdə də yeni məktəblərin tikintisinə dəstək göstərilmişdir. 2005- ci il oktyabrın 8- də Pakistanda baş verən güclü zəlzələdən zərər çəkmiş və tamamilə dağılmış məktəblərin yenidən inşasına Fondun hesabından vəsait ayrılmışdı[7,93 ].

Təhsil sahəsində müxtəlif ölkələrlə əməkdaşığı həyata keçirmək üçün elmi konfransların keçirilməsinə də Dövlət Neft Fondu vəsait ayırmışdı. 2005- ci ildə Parisdə YUNESKO - nun xətt ilə kimyaçı alim akademik Yusif Məmmədəliyevin 100 illik yubileyi keçirilmişdir.

Azərbaycanın qloballaşan dünya iqtisadiyyatına inteqrasiyası sahəsində respublikamız sürətlə inkişaf etməkdədir.Ulu Öndərin çoxşaxəli fəaliyyəti davam etdirilərək elm və təhsilin inkişaf etdirilməsi bu gün də böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə həyata keçirilən layihələrin reallaşmasında Dövlət Neft Fondunun xidmətləri misilsizdir [7,121].'

ARDNŞ-nin istismar etdiyi neft yataqlarından əldə olunan gəlir ARDNF-nun hesabına köçürülərək elm və təhsilin də inkişaf etdirilməsi üçün qəbul edilən Dövlət Proqrqamlarının həyata keçirilməsinə sərf edilmişdir. 2001-2015-ci illərdə Dövlət Neft Fonduna 124,9 milyard dollar daxil olmuşdu [6,169 ].

2001- ci ildən 2019- cu ilə kimi isə dövlət büdcəsinə " Əsrin müqaviləsi" çərçivəsində 148,3 milyard dollar vəsait daxil olmuşdu [8 ].

**Nəticə**. Elmlə praktikanın vəhdətini reallaşdıran Ulu Öndərin Azərbaycanın əsas təbii sərvətlərindən olan neftlə bağlı yeritdiyi siyasət və əldə edilmiş maddi nəticələr elm və təhsilin paralel inkişafını təmin etmişdir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycan Respublikasının tarixi.(1991- 2003). 1- ci cild. Heydər Əliyev dövrü. Azərbaycan Tarixçilər İctimai Birliyi.Bakı.2016. 704 səhifə.
2. Azərbaycan Respublikasının tarixi.(2003- 2016). 2 - ci cild. İlham Əliyev dövrü. Azərbaycan Tarixçilər İctimai Birliyi.Bakı.2016.716 səhifə.
3. Azərbaycan Respublikası  Dövlət Neft Fondu.İllik hesabat.  https://genderi.org/
4. Alıyev İ.,Əsədov A. Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı. Xalq qəzeti.-2009. 12 dekabr.,s.6.http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009.
5. Heydərov P. “Əsrin müqaviləsi” bizə nə verdi. Nə verir və nələr verəcək?”.https://azvision. az
6. Səmədzadə  Z. Azərbaycan iqtisadiyyatı 100 ildə. III cild. 2021. Letterpress.
7. “Yeniləşən Azərbaycana yeni məktəb” Proqramı”. //Heydər Əliyev fondunun nəşrləri. Heydər Əliyev Fondunun təhsil sahəsindəki fəaliyyəti.// 2006-2007.